AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

UNEC

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**TƏSDİQ EDİRƏM:**

***"Maliyyə və audit" kafedrasının müdiri:***
***i.e.d., prof. Ə.Ə.Ələkbərov***

**11 fevral 2025- ci il**

# "İNVESTİSİYANIN İDARƏ EDİLMƏSİ"

fənni üzrə

# İŞÇİ TƏDRİS PROQRAMI

**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | 00432 |
| **Fənnin növü:** | əsas |
| **Tədris ili:** | 2024/2025 |
| **Tədris semestri:** | Yaz |
| **Tədris forması:** | əyani |
| **Fakültə:** | "Maliyyə və mühasibat" |
| **Kafedra:** | "Maliyyə və audit" |
| **Qrup:** | 626, 628,630,632, 634, 636,638,640, 642, 644 |
| **Tədris yükü:** | 60 saat (30/30) |
| **Kredit sayı:** | 6 (altı) |

## II. Müəllim haqqında məlumat

| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | Prof.M.M.Bağırov<br>Dos.Z.H.Zeynalov<br>Hüseynova Alidə |
| **E-mail ünvanı:** | alida-gusenova @mail.ru |
| **İş telefonu:** | 4925913 |
| **Tələbələr üçün qəbul vaxtları:** | III günü 12.00-14.00 |

## III. Fənnin təsviri

İnvestisiyanın idarə edilməsi bütün təşkilatlar üçün çox vacibdir, çünki bu investisiyanın mahiyyəti, məzmunu və əhəmiyyəti, investisiya fəaliyyətinin anlayışı, məqsəd *və* vəzifələri, investisiya siyasətinin əsas istiqamətləri, investisiya mühitinin sağlamlaşdırılması və yaradılması, investisiya risklərinin təhlili, qiymətləndirilməsi və idarə edilməsi üsuları, investisiya layihəsi və onun qiymətləndirilməsi, investisiya portfelinin formalaşması və idarə edilməsi, real investisiyalarının idarə edilməsi, maliyyə investisiyalarının idarə edilməsi, investisiyaların iqtisadi təhlili və qiymətləndirilməsi, qiymətli kağızlar bazarının inkişafı və qiymətli kağızlara investisiya, investisiya qoyuluşlarının maliyyələşdirilməsi və kreditləşdirilməsi, investisiyanın lizinq maliyyələşməsi, investisiyanın ipoteka maliyyələşməsi, investisiyaların verçur maliyyələşməsi kimi mövzular cavablandırılmışdır.

Fənn investisiyanın mənbələrini müəyyən edir və investisiyanın idarə edilməsini necə qiymətləndirilə və ölçülə biləcəyini araşdırır. O, müxtəlif situasiyalarda və investisiyanın idarə edilməsi çərçivəsi kontekstində idarə etməni yüksəltmək ücün üsul və vasitələri tövsiyə edir və əsaslandırır. Bu üsulların çoxu maliyyə alətlərinin tətbiqini əhatə edir. Buna görə də, tələbələrə investisiya mühitinin sağlamlaşdırılması və yaradılması haqqında, investisiya risklərinin təhlili, qiymətləndirilməsi və idarə edilməsi üsuları, investisiya layihəsinin, investisiya portfelinin formalaşması və idarə edilməsi, investisiya qoyuluşlarının maliyyələşdirilməsi və kreditləşdirilməsi üsulları, investisiyanın lizinq, ipoteka və verçur maliyyələşməsi haqqında ümumi məlumat veriləcəkdir. Eyni zamanda investisiya risklərinin necə qiymətləndirildiyinə, onların dəyərlərinə xarici amillərin necə təsir etdiyinə və onların istifadəsinin əməliyyat və qarşı tərəf risklərinə necə səbəb olduğunu öyrənmək imkanı əldə olunacaq.

## IV. <u>Fənnin məqsədi və vəzifələri</u>

"İnvestisiyanın idarə edilməsi" fənninin **əsas məqsədi** tələbələrdə investisiyanın idarə edilməsinə vahid baxış, investisiya risklərinin təhlili, qiymətləndirilməsi və idarə edilməsi sahəsində peşəkar bacarıqların (kompetensiyaların) formalaşdırılmasıdır.

**<u>Fənnin vəzifələri:</u>**

- mövcud investisiya konsepsiyalarının təqdim edilməsi;
- iqtisadiyyatda və cəmiyyətdə investisiyanın idarə edilməsinə yanaşmaların təkamülünün təqdim edilməsi;
- investisiyanın mahiyyətinin və onların təsnifatının öyrədilməsi;
- investisiyanın idarə edilməsinin müasir üsullarının (metodlarının) öyrədilməsi;

- investisiyanın idarə edilməsi sisteminin qurulmasının ümumi ardıcıllığının izah edilməsi;
- investisiyanın idarə edilməsi üsulları və investisiyanın idarə edilməsi strategiyalarının qurulması prinsipləri ilə tanışlıq.

**V. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- investisiya fəaliyyətinin idarə edilməsi prinsiplərini
- investisiyanın idarə edilməsinin əsas istiqamətlərini
- investisiyanın idarə edilməsi strategiya və metodlarını
- investisiyanın idarə edilməsi və qiymətləndirilməsi göstəricilərini.

**Bacarmalıdırlar:**

- qiymətli kağızların dəyərini hesablayırlar;
- investisiya portfelinin dəyərini hesablayırlar;
- investisiya bazarında yaranacaq riskləri hesablayırlar və s.

**VI. Fənnin mühazirə mövzuları**

1. İnvestisiyanın mahiyyəti və məzmunu
2. İnvestisiya fəaliyyəti – iqtisadi inkişafın əsası kimi
3. İnvestisiya siyasəti və onun əsas istiqamətləri
4. İnvestisiya mühiti və iqlimi
5. İnvestisiya risklərinin təhlili və idarə etmə üsuları
6. İnvestisiya layihəsi və onun qiymətləndirilməsi
7. İnvestisiya portfelinin formalaşması və idarə edilməsi
8. Real investisiyalarının idarə edilməsi
9. Maliyyə investisiyalarının idarə edilməsi
10. İnvestisiyaların iqtisadi qiymətləndirilməsi
11. Qiymətli kağızlara investisiya
12. İnvestisiya qoyuluşlarının maliyyələşdirilməs və kreditləşdirilməsi
13. İnvestisiyanın lizinq maliyyələşməsi
14. İnvestisiyanın ipoteka maliyyələşməsi
15. İnvestisiyaların vençur maliyyələşməsi

**VII. Prerekvizitlər**

Yoxdur.

**VIII. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şeklində layihələrin aparılması, kicik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse və yaxud sərbəst işlərin yazılmasıvə test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

**IX. Əsas dərslik və ədəbiyyat**

**Tövsiyə olunan ədəbiyyat siyahısı**


1. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 22 iyun 2022-ci il
2. “Lizinq xidməti haqqında” Azərbaycan Respublikası Qanunu Bakı şəhəri, 29 noyabr 1994-cü il.
3. “İpoteka krediti haqqında” Azərbaycan Respublikası Qanunu Bakı şəhəri, 28 dekabr 2018-ci il.
4. Əliyev Q.İ. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016.
5. Abbasov A. B. “Biznesin təşkili və idarə edilməsi” Dərs vəsaiti. . Bakı. 2010.
6. Məmmədov M. H., Şahbazov K. A., Həsənov H. S. “Menecment” Bakı. 2007.
7. Atakişiyev M. C. “Maliyyə menecmenti” Bakı. 2013.
8. Abbasov İ. M., Sadıqov R. F. “Menecment” Bakı. 2013.
9. «İnvestisiyalar və Azərbaycanda onların mövcud durumu». F.Zeynalov. Bakı. 2001.
10. Ə.Ə. Ələkbərov., Z.F.Məmmədov., A. T.Hüseynova “Maliyyə bazarları”.

Dərs vəsaiti.Baki 2021
11. Ə.Ə.Ələkbərov, Z.H.Zeynalov "Bank işi", metodik göstəriş, "İqtisad Universiteti" nəşriyyatı, Bakı 2017
12. Z.H.Zeynalov "Azərbaycanın bank xidmətləri bazarında lizinqin inkişafı məsələləri" Monoqrafiya , "Çaşıoğlu" nəşriyyatı. Bakı 2018
13. Z.F.Məmmədov "Bank işi" Bakı 2016.
14. "Инвестиции" Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. Бэйли Перевод с английского Москва 2021
15. "Инвестиции и инвестиционная деятельность" учебник / Л. И. Юзвович, Министерство науки и высшего образования Российской Федерации, Уральский государственный экономический университет. – Екатеринбург: Изд-во Урал. ун-та, 2021. – 498
16. А.М. «Инвестиции» Москва 2006
17. Игонина А.Л. «Инвестиции» Москва 2004
18. Ложникова А.В. «Инвестиционные механизмы в реальной экономике» Москва 2001
19. Евдокимова Т.Г. и др. «Инновационный менеджмент» Москва 2005
20. Барынвой А.В. и др. «Инновации» (учебное пособие) Москва 2007
21. Колтыннок Б.А. «Инвестиционные проекты» Москва 2002
22. Инвестиционный анализ: учебное пособие / [И. С. Межов и др.]. – Москва: КноРус, 2016. – 415 с.
23. Маркова, Г.В. Экономическая оценка инвестиций: Учебное пособие / Г.В. Маркова. - М.: Курс, 2018. - 320 с.
24. Терехова, Е. В. Правовое регулирование прямых и портфельных инвестиций: учебно-методическое пособие / Е. В. Терехова. - Москва: Русайнс, 2022. - 228 с.
25. Чараева, М.В. Реальные инвестиции: учебное пособие / М. В. Чараева. Москва: Инфра-М, 2018. - 263с.
26. Шапкин, А. С. Управление портфелем инвестиций ценных бумаг / А. С. Шапкин, В. А. Шапкин. – 6-е изд. – Москва: 2021. – 510 с.
27. www.azstat.orq
28. www.kitab.az;
29. www.kitabxana.org;
30. www.iqtisad.net;
31. www.qanunvericilik.az;
32. www.qanun.az.

## X. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| I | **İnvestisiyanın mahiyyəti və məzmunu** | “İnvestisiya” anlayışı. İnvestisiya anlayışı, investisiyanın sosial-iqtisadi mahiyyəti, onun şərtləri. Azərbaycan qanunverijiliyində investisiyanın açıqlanması, onun mikrovə makrosəviyyədə funksiyaları Elmi investisiya nəzəriyyələrinin təkamülü. İnvestisiyanın mahiyyəti, onun amilləri, əlamətləri və funksiyaları. İnvestisiyanın təsnifatı, qruplaşdırılması investisiya növləri, onların səciyyələndirilməsi. İnvestisiya və kapital qoyuluşu, onların ümumi və fərqli cəhətləri, kapital qoyuluşunun səciyyələndirilməsi | “Инвестиции” Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. Бэйли Перевод с английского Москва 2021 |
| II | **İnvestisiya fəaliyyəti – iqtisadi inkişafın əsası kimi** | İnvestisiya fəaliyyətinin mahiyyəti və xüsusiyyətləri. İnvestisiya fəaliyyətinin tərkib hissələri. İnvestisiya informasiyası. İnvestisiya fəallığı. İnvestisiya mənbələri. İnvestisiya məkanı. İnvestisya resursları. İnvestisiya subyekti və obyektləri. İnvestisiya fəaliyyətində dövlət iştirakı. Sifarişçi (investor) və podratçılar, onların hüquq və vəzifələri. İnvestisiya bazarı, onun maliyyə bazarının tərkibində yeri və fəaliyyəti xüsusiyyətləri. | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi ». Dərslik. Bakı. 2016. |
| III | **İnvestisiya siyasəti və onun əsas istiqamətləri** | İnvestisiya siyasəti, onun məzmunu, mahiyyəti və əhəmiyyəti. İnvestisiya siyasətinin prinsipləri, onun növləri. İnvestisiya siyasətinin hazırlıq mərhələləri, ona tçəsir edən amillər. İnvestisiya | “Инвестиции” Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. |

| | | | |
|---|---|---|---|
| | | siyasətinin idarə edilməsi strategiyaları və üsulları. İnvestisiya siyasətinin kəmiyyət qiymətləndirilməsinə ümumi yanaşmalar. İnvestisiya siyasətinin qiymətləndirilməsinin göstəriciləri. | Бэйли Перевод с английского Москва 2021 |
| **IV** | **İnvestisiya mühiti və iqlimi** | İnvestisiya mühiti, onun məzmunu və növləri. İnvestisiya anlayışı və investisiya fəaliyyətinin mahiyyəti. İnvestisiya mühitinin formalaşmasına daxili və xarici amillərin təsiri. İnvestisiyanın növləri və iqtisadi məzmunu. İnvestisiya iqlimi, investisiya risklərinin mahiyyəti. İnvestisiya fəaliyyətində vergi sisteminin iştirakı və rolu. | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016. |
| **V** | **İnvestisiya risklərinin təhlili və idarə etmə üsuları** | İnvestisiya riskinin mahiyyəti. Risklərin təsnifatı. İnvestisiya risklərinin idarə edilmsi və təsnifatı. İnvestisiya risklərinin təhlili və qiymətləndirilməsi. İnvestisiya risklərinin azaldılması yolları. İnvestisiya riskinin idarə edilməsi. İnvestisiya riski anlayışı və onun yaranmasına təsir edən amillər. İnvestisiya risklərinin hesablanmasına əsas yanaşmalar. İnvestisiya riskinin qiymətləndirilməsində yeni kompleks maliyyə təhlili göstəricisinin mahiyyəti. Risk təhlilinin ehtimal üsulları. Layihə qərar ağacı yaratmaqla fərdi layihə riskini təhlil etmək üsulu. | Инвестиции и инвестиционная деятельность: учебник / Л. И. Юзвович, Министерство науки и высшего образования Российской Федерации, Уральский государственный экономический университет. – Екатеринбург: 2021 |
| **VI** | **İnvestisiya layihəsi və onun qiymətləndirilməsi** | İnvestisiya layihələri, onların mahiyyəti, təsnifatı. Layihənin zəruriliyi. Layihələrin işlənib hazırlanması qaydaları. İnvestisiya layihəsinin biznes planı. Layihələrin qiymətləndirilməsi, əlverişli layihənin seçilməsi. İnvestisiya layihələrinin maliyyələşdirilməsi və kreditləşdirilməsi üsulları. İnvestisiya layihələrinin qiymətləndirilməsi | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016. |

| | | | |
|---|---|---|---|
| | | üsulları. İnvestisiya layihələrinin qiymətləndirilməsinə metodik yanaşmalar və onun idarə edilməsi. | |
| **VII** | **İnvestisiya portfelinin formalaşması və idarə edilməsi** | İnvestisiya portfelinin mahiyyəti və onu təyin edən amillər. İnvestisiya portfelinin formalaşması. İnvestisiya portfelinin tərkibi. İnvestsiya portfelinin növləri. İnvestisiya portfelinin idarə edilməsi. İnvestisiya portfelinin xüsusiyyətləri. İnvestisiya portfelinin idarə edilməsi üsulları. | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016. |
| **VIII** | **Real investisiyalarının idarə edilməsi** | Real investisiyaların mahiyyəti. Real investisiyaların anlayışı və onun yaranmasına təsir edən amillər. Real investisiyaların təsnifatı. Real investisiyaların idarə edilmsi. Real investisiyaların təhlili və qiymətləndirilməsi. Real investisiyaların təhlilinin ehtimal üsulları. Real investisiyaların hesablanmasına əsas yanaşmalar. Real investisiyaların qiymətləndirilməsində yeni kompleks maliyyə təhlili göstəricisinin mahiyyəti. | Чараева, М.В. Реальные инвестиции: учебное пособие / М. В. Чараева. Москва: Инфра-М, 2018. |
| **IX** | **Maliyyə investisiyalarının idarə edilməsi** | Maliyyə investisiyaların mahiyyəti. Maliyyə investisiyaların anlayışı və onun yaranmasına təsir edən amillər. Maliyyə investisiyaların təsnifatı. Maliyyə investisiyaların idarə edilmsi. Maliyyə investisiyalarının xüsusiyyətləri. Maliyyə investisiyalarının idarə edilməsinin məqsədi kimi maliyyə sabitliyinin təmin edilməsi. İnvestisiya fəaliyyəti ilə bağlı maliyyə investisiyalarının idarə edilməsi mexanizmi. Maliyyə investisiyalarının təhlili və qiymətləndirilməsi. Maliyyə investisiyalarının idarə edilməsi. | “Инвестиции” Уильям Ф. Шарп, Гордон Дж. Александер, Джеффри В. Бэйли Перевод с английского Москва 2021 |
| **X** | **İnvestisiyaların** | İnvestisiyaların iqtisadi qiymətləndirilməsi. | “Инвестиции и |

| | | | |
|---|---|---|---|
| | **iqtisadi qiymətləndirilməsi** | İnvestisiyaların qiymətləndirilməsi üsulları. İnvestisiyaların dəyəri necə artır. İnvestisiyaların iqtisadi təhlili necə aparılır. İnvestisiyaların gəlirliliyi necə hesablanır. istiqrazların qiymətləndirilməsi. | инвестиционная деятельность” учебник / Л. И. Юзвович, Министерство науки и высшего образования Российской Федерации, Уральский государственный экономический университет. – Екатеринбург: 2021 |
| **XI** | **Qiymətli kağızlara investisiya** | Qiymətli kağızlar: anlayışı, təsnifatı, gəlirliliyi və riski. Qiymətli kağızların funksiyaları. Qiymətli kağızlara investisiya qoyuluşları. Qiymətli kağızlar bazarı, onun obyekt və subyektləri. Qiymətli kağızlar bazarının inkişafı istiqamətləri. Kommersiya banklarının qiymətli kağızlar bazarında fəaliyyəti. Qiymətli kağızların investisiya keyfiyyəti. İnvestisiya portfelinin yaradılması. İnvestisiyanın qiymətli kağızlar vasitəsilə maliyyələşməsi və kreditləşməsi. | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016. |
| **XII** | **İnvestisiya qoyuluşlarının maliyyələşdirilməs və kreditləşdirilməsi** | İnvestisiya qoyuluşlarının maliyyələşdiril-məsi və kreditləşdirilməsi üsulları. İnvestisiya qoyuluşlarının qiymətləndirilməsi üsulları. İnvestisiyanın ənənəvi maliyyələşməsi və kreditləşməsi mənbələri. İnvestisiyaların və kapital qoyuluşlarının maliyyələşməsi mənbələri. İnvestisiya fəaliyyətində banklar, uzun və qısamüddətli kreditlər maliyyələşmə mənbəyi kimi. Banklar tərəfindən kapital qoyuluşunun maliyyələşdirilməsi şərtləri. İnvestisiya kreditinin məqsədi və vəzifələri. | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016. |

| | | | |
|---|---|---|---|
| **XIII** | **İnvestisiyanın lizinq maliyyələşməsi** | Lizinq fəaliyyəti və investisiya. Lizinq haqqında anlayış, onun inkişafı istiqamətləri. Bankın lizinq fəaliyyəti və onun xüsusiyyətləri. Regionların inkişafında lizinqin rolu. Lizinq fəaliyyəti və onun investisiya prosesinə təsiri. | Z.H.Zeynalov "Azərbaycanın bank xidmətləri bazarında lizinqin inkişafı məsələləri" Monoqrafiya Bakı 2018 |
| **XIV** | **İnvestisiyanın ipoteka maliyyələşməsi** | İpoteka krediti və investisiya. İpoteka krediti haqqında anlayış, onun qanuni əsasları. İpoteka kreditinin şərtləri, Azərbaycan ipoteka fondu, onun rolu. İpoteka krediti üzrə müvəkkil banklar, onların fəaliyyət prinsipləri. | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016. |
| **XV** | **İnvestisiyaların vençur maliyyələşməsi** | İnvestisiyanın vençur (risk) maliyyələşməsi, mahiyyəti və mərhələləri. İnkişaf etmiş ölkələrin vençur maliyyələşməsi mexanizmi. | Qəmbər Əliyev. «İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi». Dərslik. Bakı. 2016. |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir. T

ələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal: 4,5 bal
- 8 bal : 4baI
- 7 bal: 3,5bal
- 6 bal: 3 bal
- 5 bal: 2,5 bal
- 4bal: 2bal
- 3 bal:1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir. B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah; b - seminar dərslərində alınan müxtəlif ballar s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

## XIII. <u>Fənn üzrə kurs işi</u>

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV <u>Fənn üzrə ara və aralıq qiymətləndirmə</u>

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, aralıq qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - “qeyri-kafi” | - F |
| 51-60 bal | - “qənaətbəxş” | - E |
| 61-70 bal | - “kafi” | - D |
| 71-80 bal | - “yaxşı” | - C |
| 81-90 bal | - “çox yaxşı” | - B |
| 91-100 bal | - “əla” | - A |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.